Dumlupınar Bulvarı No:252 (Eskişehir Yolu 9. Km.) 06530 /ANKARA www.tobb.org.tr - tobb@hs01.kep.tr

**Sayı** : E-34221550-720-4468 **Tarih**: 03.05.2024
**Konu** : Türkiye-Azerbaycan İş Forumu - 8 Mayıs 2024/HATIRLATMA

**TÜM ODA VE BORSALARA**
**(Genel Sekreterlik)**

İlgi : 30.04.2024 tarih ve 4360 sayılı yazımız.

İlgide kayıtlı yazıda, Türkiye-Azerbaycan Hükümetlerarası Karma Ekonomik Komisyonu (KEK) 11. Dönem Toplantısı münasebetiyle 8 Mayıs 2024 Çarşamba günü Birliğimiz ve DEİK işbirliğinde Ankara'da Türkiye-Azerbaycan İş Forumu'nun düzenleneceği bildirilmişti.

Anılan İş Forumu **14:30-15:30 saatleri arasında** organize edilecek olup, forumun devamında ikili iş görüşmeleri yapılacaktır. Azerbaycan firma listesi ektedir.

Bahse konu etkinliğe katılmak isteyen firma ve kurum temsilcilerinin https://anket.tobb.org.tr/#/anket/turkiye-azerbaycan-is-forumu bağlantıda yer alan kayıt formunu 7 Mayıs 2024 saat 12:00'ye kadar doldurmaları gerekmektedir.

**Ayrıntılı bilgi için:**
TOBB: Anara Daylan, Uluslararası İlişkiler Müdürlüğü
Tel.: 0312 218 22 23
E-posta: anara.daylan@tobb.org.tr

DEİK: Elnur Osmanov, İş Konseyleri Koordinatörü
Tel.: 0212 339 50 67
E-posta: eosmanov@deik.org.tr

Bilgilerinizi ve konunun ilgili üyelerinize duyurulmasını rica ederim.

Saygılarımla,

*e-imza*
Ali Emre YURDAKUL
Genel Sekreter Yardımcısı

EK: Azerbaycan Firma Listesi (7 sayfa)

# TÜRKİYƏ – AZƏRBAYCAN BİZNES FORUMU

| № | Şirkətin adı | Profillər |
|---|---|---|
| | | **QURUMLAR** |
| **1.** | **SOCAR** | SOCAR, Azərbaycanın neft və qaz sənayesində lider və dövlətə məxsus bir şirkətdir. İqtisadiyyatının əsasını neft və qaz sənayesi təşkil edir.<br>Əsas fəaliyyət sahələri:<br>Neft və qaz hasilatı: SOCAR, Azərbaycanın daxilində və xaricində neft və qaz hasilatı ilə məşğuldur.<br>Neftin prosesinqi və rafinasiyası: SOCAR Azərbaycanın neft rafineriyalarını idarə edir və neft məhsullarının işlənməsini təmin edir.<br>Neft və qaz daşınması və ticarəti: Şirkət, neft və qazın daşınması, idxalı və idxalına dair sahələrdə fəaliyyət göstərir.<br>Neft-kimya sənayesi: SOCAR Azərbaycanda neft-kimya komplekslərinin inkişafında önəmli rol oynayır və bu sahədə yatırımlar həyata keçirir. |
| **2.** | **Azərbaycan İnvestisiya Şirkəti** | Azərbaycan İnvestisiya Şirkəti ASC (AİŞ) Prezidentin müvafiq Sərəncamı ilə 2006-cı ildə yaradılıb.AİŞ-in məqsədi Azərbaycan Respublikasının qeyri-neft sektoruna kapital investisiyalarının yatırılmasıdır.Bizim strateji məqsədimiz Azərbaycanda həyata keçirilən yüksək əlavə dəyərli müəssisə və layihələrin maliyyələşdirilməsi və dəstəklənməsi vasitəsilə yerli iqtisadiyyat və investorlar üçün dəyərin artırılmasıdır. |
| **3.** | **İqtisadi Zonaların İnkişafı Agentliyi** | İqtisadi Zonaların İnkişafı Agentliyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanı ilə "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin əsasında publik şəxs kimi yaradılıb. Hazırda Agentliyin idarəçiliyində 6 sənaye parkı, 4 sənaye məhəlləsi, 24 aqropark və Peşə Təhsil Mərkəzi fəaliyyət göstərir. |
| **4.** | **Ələt Azad İqtisadi Zona** | Azad Zona Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməklə Xəzər hövzəsində ən böyük logistika mərkəzi olaraq fəaliyyət göstərəcəkdir. Yaxın gələcəkdə Azad Zona Avropa, Türkiyə, İran, Rusiya, Çin, Orta Asiya, Yaxın Şərq dövlətləri üçün Bakı Beynəlxalq Dəniz Ticarət Limanının iqtisadi əhəmiyyətini daha da artıracaqdır. Ələt azad iqtisadi zonasının fəaliyyəti Çin, Hindistan, İran, Rusiya və Mərkəzi Asiya regionu ilə Türkiyə və Qərb dövlətləri arasında ticarətin inkişafında və daha da sürətləndirilməsində böyük rol oynayacaq. Beləliklə, yeni Bakı limanı Avrasiyanın ən əsas nəqliyyat qovşaqlarından birinə çevrilir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanına |

| | | |
|---|---|---|
| | | və qlobal nəqliyyat dəhlizlərinə bitişik, strateji coğrafi mövqeyə malik Ələt Azad İqtisadi Zonası (AFZ) regional investisiya mərkəzi rolunu oynayacaq və yüksək əlavə dəyər və ixracla məşğul olan investorlar üçün əla biznes mühiti təqdim edəcək.Belə bir iqtisadi zonanın yaradılmasının üstünlüyü ondan ibarətdir ki, Azərbaycan tranzit ölkə olaraq öz imkanlarını genişləndirə biləcək və ölkə ərazisinə daha çox yükdaşımalara nail olacaq. |
| **5.** | **Azərbaycan Sənaye Korporasiyası** | “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətinin yaradılmasının məqsədləri, korporativ idarəetmə prinsiplərinə əsaslanan hesabatlılıq və nəzarət sistemini formalaşdırmaq, dövlətə məxsus müəssisələr arasında əlverişli kooperasiya əlaqələrinin yaradılmasına və istehsal potensialının dəyər zəncirinin həlqələri üzrə artırılmasına nail olmaq, ölkədə iqtisadiyyatın tarazlı, rəqabətqabiliyyətli və dayanıqlı inkişafını təmin etmək,qeyri-neft sektorunun inkişaf sürətini artırmaq, regionlarda və bütövlükdə respublikada yeni iş yerlərinin açılması ilə işsizliyi aradan qaldırmaq, əhalinin maddi-rifah halının yüksəldilməsini təmin etməkdir. |
| **ŞİRKƏTLƏR** | | |
| **6.** | **Azersun** | Azərsun Holding Azərbaycanın ən böyük qida istehsalçılarından biridir və özünə məxsus olan fabriklərdə dəniz məhsulları, ət məhsulları, süd məhsulları kimi məhsullar istehsal edir. Bununla yanaşı burada sənayenin aşağıdakı sahələri ilə məşğul olan ondan çox müəssisə fəaliyyət göstərir: qida emalı, kənd təsərrüfatı, ticarət, qablaşdırma və kağız sənayesi. |
| **7.** | **Azeraluminium** | Azərbaycanın ən böyük alüminium istehsalçısıdır. Şirkət, Azərbaycanın Yuxarı Qarabağ bölgəsində yerləşir və şəhər olan Qəbələdə alüminium istehsalı üzrə əməliyyatları ilə məşğul olur. Azəralüminiumun əsas məhsulları arasında primar alüminium, alumina, alüminium oksid, şakar, ştap və digər yan məhsullar var. |
| **8.** | **ALCO** | AMINOL öz regionunda hazır sürtkü yağları, əlavələr, antifriz, AdBlue və əyləc mayelərinin aparıcı istehsalçısı kimi fəaliyyət göstərir və qlobal miqyasda 56-dan çox ölkəni əhatə edir.Azad iqtisadi zonada yerləşən ALCO MMC xammal tədarükçüləri ilə birbaşa müqavilələr bağlamağa və ölkənizə asanlaşdırılmış nəqliyyat marşrutlarına imkan verən vergidən azad statusa malikdir. |
| **9.** | **Mətanət A** | "Mətanət A" şirkəti Sement və gips əsaslı məhsulların Azərbaycanda ilk istehsalçısıdır. Şirkət inşaat məhsulları sahəsində Azərbaycanda ilk dəfə olaraq İSO 9001:2008 "Keyfiyyətin İdarə Olunması" beynəlxalq standartını almışdır. "Mətanət A" şirkəti gips əsaslı məhsullar sahəsində də yeniliklər etmiş, Qafqazda ilk müasir tipli gips zavodu olan "AĞDAĞ" zavodunun əsasını qoymuş, alman texnologiyasına əsaslanan, rəqəmsal texnologiya ilə avtomatlaşdırılmış formada istehsal prosesini həyata keçirərək "AĞDAĞ" məhsulunun istehsalına başlamışdır. |

| | | |
|---|---|---|
| **10.** | **SOCAR Karbamid** | SOCAR Karbamid, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən inşa edilmiş bir gübrə zavodudur. bu zavod, ammiak və karbamid kimi məhsulların istehsalı üçün texnoloji infrastruktura malikdir. SOCAR Karbamid, ölkədə gübrə sənayesinin inkişafını dəstəkləməklə yanaşı, yerli məhsul istehsalını artırmaq və daxili istehsalatı gücləndirmək məqsədilə önəmli bir rol oynayır. |
| **11.** | **Ozbahceci Group** | Özbahceci “Port Baku Bazar”, “Araz”, “Neptun”, “Rahat” supermarketlər şəbəkələrinin və digər brend biznes layihələrinin qurucu rəhbəri olub. Bu gün “Bolmart”, “Grandmart”, “Megastore”, “Bizim Market” supermarketlər şəbəkələrinin, “Azcake”, “Rafa Group”, “Baqqal” və digər brendlərin həmtəsisçisidir. Yüzlərlə biznes layihəsinin əsasında Özbahçeci imzası dayanır və bir iş adamı olaraq mütəmadi olaraq gənclərə biznes təlimləri verir. |
| **12.** | **Saloğlu** | 2000-ci ildə qurulan və hər zaman yüksək keyfiyyəti təmin edən Saloğlu Mebel Fabriki yataq otağı, qonaq otağı və yumşaq mebellər üçün tam mebel dəstini təklif edir. 400 nəfərin çalışdığı Saloğlu Mebel Fabriki ən son texnologiyadan istifadə edərək daima keyfiyyət prinsiplərinə sadiqdir. |
| **13.** | **SENSEMİ DMCC** | Şirkət bir sıra sənaye sahələrini əhatə edir. Buna, yüksək keyfiyyətli elektrik avadanlıqları, avtomatlaşdırma layihələrinin həyata keçirilməsi, mərkəzi istilik sisteminin idarə edilməsi və ictimai nəqliyyat aiddir. |
| **14.** | **EEL Elektrik** | EEL ELECTRIC Alçaq və otra gərginlikli avadanliqlarin istehsalı (0.4/6/10/35 kV), sayğac panelləri, motor idarə etmə panelləri, transformator məntəqələri (6-10-35 KV), 6300A ə qədər 0.4kv paylayıcı lövhələr, İnvertor Panelləri istehsalı ilə məşğuldur |
| **15.** | **Vəfa Tesktil** | Ev tekstili məhsulları, çarpayılar, yorğan örtükləri, dəsmallar və oxşar məhsulların istehsalı və satışı ilə tanınır. Şirkət keyfiyyətli məhsulları və dəbli dizaynı ilə müştərilərinə geniş çeşiddə məhsullar təqdim edir. Müştəri məmnuniyyətinə önəm verən və ev tekstili sahəsində etibarlı olan bir markadır. |
| **16.** | **Fybernet** | İKT |
| **17.** | **Pro Glass** | “PRO GLASS” MMC 2019-cu ildə yaradılıb. Qısa müddət ərzində böyük uğurlara imza atan “PRO GLASS” MMC qarşısına qoyduğu bütün hədəflərə tez çatması ilə seçilir. “PRO GLASS” MMC yarandığı gündən yüksək keyfiyyət və müştəri məmnuniyyətini daim diqqət mərkəzində saxlamışdır. Xarici və yerli brendlərlə partnyor olan şirkət öz istehsal sahəsində yüksək keyfiyyətli avadanlıqlarla göz oxşayan və keyfiyyətli məhsulları müştərilərinə təqdim etmişdir. Bütün layihələrinin məsuliyyətini öz üzərinə götürən “PRO GLASS” MMC bütün müştərilərinin rəğbətini və etibarını qazanmışdır. |

| | | |
|---|---|---|
| 18. | **Supreme Pharmatech manufacturing** | Supreme Pharmatech Manufacturing Thailand Azərbaycan birgə müəssəsidir. Müəssisə Pirallahıda 17000 kv m fabrik tikir. Fabrikdə 3 bölmə olacaq. İnsanlar üçün nano-liposomal qida əlavəsi və dərmanlar, heyvanlar üçün qida əlavəsi və dərmanlar və nanokosmetika. |
| 19. | **Foriella** | Balaxanı sənaye parkında 6000 m2 istehsal sahəsi olan “Foriella” MMC Qafqazda bərk fıstıq və palıd ağacından yüksək keyfiyyətli stul və stolların ən böyük istehsalçısıdır. Məhsullar Gürcüstan, Qazaxıstan, Rusiya, Tacikistan, Qırğızıstan və s. |
| 20. | **Hasmatic Baku** | Hasmatik Bakı MMC Azərbaycanda əhəmiyyətli lahiyələrdə iştirak etmiş və qəzil fasad sistemlerini həyata keçirtmişdir. Boulevard Hotel, İntourist Hotel, Winter Park, Merchant hotel, Hard Rock cafenin ön şüşə və panel işlərini tamamlamışdır. Hal-hazırda dünyada bənzəri olmaya Cresent Bay lahiyəsində xüsusi diqqətə malik Ay Para – La Luna hotel binasını fasad işlərini tamamlamaq üzərəyik. Bildiyiniz kimi Ay Para hotel binasının hər tərəfi şüşə fasad ilə təchiz olunub və mürəkkəb mühəndislik tələb edən lahiyədir. Lahiyənin gedişatını Bakı şəhərinin 4 bir tərəfindən müşahidə etmək mümkündür. Hasmatik Bakı MMC-nin təcrübə və təchizatının başlıca kökü Hasmatik Türkiyə baş ofisinin uzun müddətli təcrübəsinə dayanır. Hasmatik Türkiyə dünyanın 4 bir yanında diqqətə layiq lahiyələri yerinə yetirmişdir. Ətraflı məlumat üçün hasmatik.com.tr ziyarət edə bilərsiniz. |
| 21. | **Khazar NM** | “Xəzər NM Group” Bakı və ətraf ərzilərdə ən böyük və ən nüfuzlu layihələrin tikinti işlərində iştirak etmişdir . Başlıca məqsədimiz həyata keçirdiyimiz layihələr və hazırladığımız binalar vasitəsilə cəmiyyət üçün rifah mirası yaratmaqdır. “Xəzər NM Group” şirkətinin portfelində yer alan görkəmli layihələrə misal olaraq: Azərbaycan Dövlət Neft Fondu, Azərbaycan Milli Bank, Port Baku Towers, Amburan Mall, Dəniz Mall, Four Season Hotel, Şahdağ Villaları, Gəncə Mall, Baku City Villa, Port Baku Mall və bir çox proyektləri göstərmək olar. |
| 22. | **International Trading and Investment Enterprise Group** | "ITIEG" şirkəti Çexiyanın "ANT Alliance" şirkətinin Azərbaycanda rəsmi distribyutorudur və ANT Alliance tərəfindən istehsal olunan "ISOPOLANT" duru hidroizolyasiya materiallarının yeganə satıcısıdır. ISOPOLANT duru poliuretan və bitum-poliuretan su izolyasiya materiallarını ehtiva edir və yüksək keyfiyyətli su izolyasiya sistemlərinin istehsalında yalnız ən son texnologiyalara dayanaraq istehsal olunur. |
| 23. | **Semsan** | “SemSan” şirkəti 1987-ci ildə Azərbaycanın Gəncə şəhərində fəaliyyətə başlamış və az sonra müasir tipli bir zavod-fabrika yaratmışdır. Şirkətin hədəfi yüksək keyfiyyətli plastik məhsullar, həmçinin latun fitinqlər istehsal etməkdir. Regionda ilk yaradılan polimer-sınaq laboratoriyası istehsal edilən məhsulların yüksək keyfiyyətli olmasının qarantıdır. Davamlılıq və keyfiyyətə, aparıcı Avropa şirkətlərinin müasir texnikasından və “Hyosung corporation” (Cənubi Koreya) şirkətinin istehsalı olan |

| | | |
|---|---|---|
| | | yüksək keyfiyyətli xammal hesabına nail olmuşuq. Məhsullarımızın keyfiyyətinfə dünya standartlarının bütün tələblərinə riayət olunur. “SemSan” şirkətində istehsal olunan polipropilen (PP-RC 3) materialından hazırlanan işməli su boruları DİN 8077/78, TC 11451/11755 və AZS 064-2001 standartlarının tələblərinə tam cavab verir. |
| **24.** | **Kartash LTD** | Kartaş MMC 2000-ci ildə Azərbaycanda yaradılıb və Mr. Fix brendi ilə tikinti kimyəviləri istehsalına başlayıb. Ölkəmizin bu sektorunda fəaliyyət göstərən ən qabaqcıl şirkətlərdən biri olan “Kartaş” MMC mövcud məhsulların təkmilləşdirilməsini və məhsul çeşidinin artırılmasını daim diqqətdə saxlayır. Müəssisə müxtəlif təyinatlı kafel və keramika yapışdırıcıları, dərz doldurucuları, hidroizolyasiya məhsulları, hazır suvaqlar, təmir məhlulları, üzlük və döşəmə materialları, beton qatqıları, sement üyüdmə qatqıları, termo izolyasiya materialları istehsal edir. Məhsullar ən son texnoloji avadanlıqlarla tam avtomatlaşdırılmış şəraitdə hazırlanır. Şirkət tikilən hər bir binanın insanların rahatlığı və təhlükəsizliyi üçün əhəmiyyət kəsb etdiyini bilərək daima keyfiyyət meyarını önə çəkir. İstehsal olunan məhsullar müntəzəm olaraq Mr. Fix keyfiyyətə nəzarət laboratoriyalarında yoxlanılır və tədqiq olunur. Şirkət ISO 9001 Keyfiyyət İdarəetmə Sistemi və yerli standartlarla fəaliyyət göstərir. Bütün məhsullar Avropa standartlarının tələb və kriteryalarını nəzərə alaraq istehsal olunur. Mr. Fix mütəmadi olaraq işçi heyətinin bilik və bacarıqlarının təkmilləşdirilməsinə yönəlik fəaliyyət göstərilir. Etibarlı məhsulları ilə hər bir müştərinin tələbinə cavab verən məhsul və xidmətlərlə müştəri məmnuniyyəti qorunub saxlanır. Gələcək nəsillərin daha ekoloji təmiz məkanlarda yaşamaları üçün çalışılır. |
| **25.** | **AKBİS Group** | Biznesin inamlı idarə edilməsi və inkişafı üçün “açar təslim” həlləri təqdim olunur:<br>həm bütün biznesin, həm də ayrıca biznes bölməsinin layihə öncəsi GAP təhlili MS PowerBI əsasında təhlil və idarəetmə üçün Daşboardlar 1C ERP səviyyəli və Agent+ mobil satışı məhsulları əsasında uçotun quraşdırılması iSpring məhsulları əsasında işçilərin qiymətləndirilməsi və inkişafı istənilən konfiqurasiyalı serverlərin icarəsi, o cümlədən idarəetmə (inzibatçılıq) Bitrix24 CRM məhsulları<br>Rəsmi 1C həlləri tərtib olunur:<br>1C:Kompleks avtomatlaşdırma 2 Azərbaycan üçün<br>1C:Mühasibat 8 Azərbaycan üçün<br>1C:Əmək haqqı və personalın idarə edilməsi 8 Azərbaycan üçün |
| **26.** | **Az-Tesktil** | 2007-ci ildən fəaliyyət göstərən Az-tekstil firması tək evləri deyil, hotelləri, ofisləri, firmaları, müəssisələri də keyfiyyətli və təminatli interyer ilə təmin edir. |
| **27.** | **Appolon Group** | Appolon Group yerli bazarda aparıcı podratçılardan biridir və 20 ildən artıqdır ki, müştərilərimizə geniş çeşiddə xidmətlər təklif edir.Elektrik sistemlərinin, generatorların və mühərriklərin təmiri və xidmətində |

| | | |
|---|---|---|
| | | sübut olunmuş təcrübəni saxlamaqla, xidmətlərimizi avadanlıqların təchizatı, eləcə də istehsal və tikinti xidmətləri üzrə genişləndirmişik. Appolon Group SOCAR, BP, CMS, Saipem, BOS SHELF, BUE CASPIAN, BSY, AKKORD, AZERENERJI, AZERSU və s. kimi böyük bazar oyunçuları ilə tamamlanmış layihələr üzrə uzun təcrübəyə malikdir. |
| **28.** | **Aze Turizm** | The company offers its tourists a quality holiday according to European standards in all popular resorts in the world. |
| **29.** | **Araznet** | İKT |
| **30.** | **BKN** | "BKN" MMC 2001-ci ildə təsis edilib və "HOB Paints" brendi altında tikinti və sənaye boyaları istehsal edir. |
| **31.** | **A+CO** | Şirkət 1997 – ci ildə nar şirəsi xammalının istehsalı və satışı ilə fəaliyyətə başlamışdır. 2006 - cı ildən şirkət A+Co MMC adı ilə spirtli məhsulların istehsalına dair lisenziya alıb və bu adla fəaliyyətinə davam edir. Keyfiyyəti ilə ölkə daxilində böyük işlər görən şirkət həmçinin öz çaxır və konyak məhsullarını Çin Xalq Respublikası və Rusiya Federasiyasına ixrac etməyə başlamışdır. |
| **32.** | **Development Corporation** | Korporasiya bir sıra dövlət və özəl müəssisələri, o cümlədən Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Təhsil Nazirliyi (“Sağlam Təhsil – Sağlam Millət” layihəsi), Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Azərbaycan Texnologiya Universiteti UTECA və s. üçün rəqəmsal marketinq xidmətini göstərir. |
| **33.** | **DDLar Group** | Şirkət yaşayış evlərinin layihələndirilməsindən başlayaraq onların satışına qədər işlərin tam icrasını yüksək peşəkarlıqla həyata keçirir. Bu xüsusiyyəti onun aparıcı mövqe tutmağına imkan yaradır və rəqiblərinin sayını isə minimuma endirərək onları geridə qoyur. DDLAR Qrupu Bakıda Su İdmanı Sarayı, Avropa Oyunları Parkı, Heydər Əliyev adına Parkı kimi seçilən və tanınmış obyektlərin müəllifidir. Yaşayış tipli daşınmaz əmlak layihələrindən danışarkən isə, Megacity YK, Green Park YK, Genclik YK, Dream Tower YK, Bayil Bay YK kimi möhtəşəm və diqqətəlayiq nümunələri göstərmək olar. |
| **34.** | **CG Caspian Group** | Caspian Group 3 Qrup Şirkətindən ibarətdir: Caspian Invest, Caspian Marine və Caspian Events. Şirkət maliyyə, enerji, nəqliyyat və s. kimi sənayenin müxtəlif sahələrində fəal fəaliyyət göstərir. |
| **35.** | **Savalan Aspi Vayneri** | “SAVALAN – ASPI Winery” MMC 2007-ci ildə əsas diqqəti üzüm yetişdirilməsinə və yüksək keyfiyyətli şərabların istehsalına yönəltməklə təsis edilmişdir. |
| **36.** | **ANC Group** | Şərablarımız yüksək ixtisaslı İtalyan mütəxəssislər, Daniel D’Andrea və Eliza Vanyoninin rəhbərliyi altında istehsal olunur. “SAVALAN” komandası, yerli və xarici peşəkar ekspertlərdən təşkil |

| | | |
|---|---|---|
| | | olunmuşdur. Şirkətimiz Azərbaycan və İtaliya kimi iki günəşli və səxavətli ölkəni bir araya gətirərək fəaliyyət göstərir. |
| **37.** | **Green Pi Energy Engineering Ltd. Co** | enerji sektorunu dəstəkləmək və onun inkişafında mühüm rol oynamaq missiyası ilə yaradılmışdır. Bu günə kimi Huawey, Inotel, Raycap, Sertec, Schrack, Swarco, Gewiss, Wallbox, TE Connectivity və s. dünyada tanınmış brendlərlə yanaşı Türkiyədə enerji ilə bağlı müxtəlif tip məhsullar istehsal edən şirkətlərlə sıx əməkdaşlıq şəraitində həm satınalma, həm quraşdırma, həm də dayanıqlı istismar təmin edən xidmətləri birbaşa həyata keçirmişdir. Green Pi Enerjinin müxtəlif istehsalçılardan alıcının ehtiyaclarına uyğun təmin etdiyi modul tipli transformatorlar, qənaətli istifadəni təmin edən şəbəkə releləri, avtomatları, günəş enerjisi panelləri / sistemləri, innovativ bərpa olunan enerji avadanlıqları, ildırım və yüksək enerji hadisələrindən qoruyucular, xüsusi dizayn çöl işıqları, elektromobillər üçün şarjlar, gəmiçilik avadanlıqları və s. məhsullar həm sənaye, həm də evdə istifadə üçün istifadə oluna bilər. Təqdim olunan məhsul və xidmətlər elektrik enerjisi istehsalını və istehlakını səmərələşdirməyə, alternativ enerji mənbələrindən istifadə potensialını reallaşdırmağa, enerji təhlükəsizliyini təmin etməyə, $CO_2$ emissiyalarını azaltmağa, enerji sektorunun şaxələndirilməsi hesabına yeni bizneslərin təşəkkül tapmasına və yeni iş yerlərinin yaradılmasına yönəlmişdir. |